# Borçalılara ağır itki üz verib

**Gürcüstanda fəaliyyət göstərən "Maarif" təşkilatının rəhbəri, tanınmış ziyalı Ələddin Qarabağlı dünyasını dəyişib. Ələddin Qarabağlı təşkilatın ofisində baş verən yanğın nəticəsində ağır yanıq xəsarətləri alaraq xəstəxanaya yerləşdirilmişdi. Ofisdə yanğının qaz partlaması nəticəsndə baş verdiyi ehtimal olunur.**



Ələddin Qarabağlı Gürcüstanın Qardabani rayonunun Ağtəhlə kəndində anadan olub. Ali təhsilini Gəncə Dövlət Pedaqoji Universitetinin fizika fakültəsində alıb. O, Ağtəhlə, Qaratəhlə kəndlərində müəllim, dərs-hissə müdiri, uzun müddət məktəb direktoru işləyib. 2001-ci ildə "Maarif" qəzetini, azyaşlı soydaşlarımız üçün isə "Tumurcuq" uşaq qəzetini təsis edib.

Fəaliyyəti boyu Gürcüstanda Azərbaycan məktəblərinin vəziyyəti ilə yaxından maraqlanan, qeyri-hökumət təşkilatları ilə onlarla layihənin reallaşmasında fəallıq göstərən tanınmış ziyalı "Gürcüstanda Azərbaycandilli məktəblərin tarixi antologiyası" adlı əsərin də müəllifidir.

Ələddin Qarabağlı "Diaspor fəaliyyətində xidmətə görə" medalı ilə təltif olunub.

**Diasporla İş üzrə Dövlət Komitəsinin rəhbərliyi və "Xalq qəzeti"nin kollektivi çoxşaxəli fəaliyyətilə yaddaşlarda iz qoyan Ələddin Qarabağlının vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.**

*XQ*